**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

________________

23.02.2024-cü il

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Korporativ idarəetmə, investisiyalar və korporativ sosial məsuliyyət" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı**

| Sıra №-si | Tematik sahə və indikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| 1. | **İnnovativ şirkətlərin inkişafı** | - | "Sizin ölkənizdə innovativ fikirləri olan yeni şirkətlər sürətlə inkişaf edirlərmi?" sualına cavab [1 = heç inkişaf etmirlər; 7 = çox sürətlə inkişaf edirlər]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | 1. İnnovativ ideyaların dəstəklənməsi məqsədilə mövcud və yeni yaradılmış mexanizmlər haqqında sahibkarların məlumatlandırılması və bu barədə mediada məlumatların paylaşılması | Mütəmadi | İqtisadiyyat Nazirliyi (o cümlədən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi (VXSİDA), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi | Elmar İsayev, Camal Ağayev, Mətanət Musayeva |
| | | | | 2. Texnoloji media üzrə dəstək tədbirlərinin həyata keçirilməsi, innovasiya müsabiqələrinin, innovasiya proqramlarının təşkili və birbaşa dəstəklənməsi | | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Camal Ağayev, Elmar İsayev |
| | | | | 3. Startapların beynəlxalq sərgi və satış nöqtələrində iştirakının dəstəklənməsi | | | |

<table>
<tr><td colspan="8">İqtisadi Azadlıq İndeksi</td></tr>
<tr><td rowspan="4">2.</td><td rowspan="4">4.2. İnvestisiya azadlığı</td><td rowspan="4">63-cü yer, 70,0 bal</td><td rowspan="4">İndeks xarici investisiyalar üzərində normativ məhdudiyyətləri qiymətləndirir və məhdudiyyətlərə görə müəyyənləşdirilmiş müvafiq ballar maksimum mümkün 100 baldan çıxılır.</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Müvafiq indeks üzrə hesablanmış balın strukturunun araşdırılması (çıxılmaların hansı məhdudiyyətlər üzrə aparılmasının öyrənilməsi)</td><td>01.05.2024</td><td rowspan="2">İqtisadiyyat Nazirliyi</td><td rowspan="3">Elmar Hacıyev, Səməd Həsənov</td></tr>
<tr><td>2. Araşdırma nəticələrinin və müəyyən edilmiş çatışmazlıqların səbəblərinin təhlil edilməsi və onların aradan qaldırılması üzrə təkliflərin hazırlanaraq Komissiyaya təqdim edilməsi</td><td>01.07.2024</td></tr>
<tr><td>3. İndikator üzrə ölkəmizin mövqeyinin yaxşılaşdırılması üçün məqbul hesab olunan təkliflər üzrə zəruri tədbirlərin həyata keçirilməsi</td><td>01.12.2024</td><td>İqtisadiyyat Nazirliyi, digər aidiyyəti qurumlar</td></tr>
<tr><td colspan="8">Qlobal İnnovasiya İndeksi</td></tr>
<tr><td rowspan="5">3.</td><td rowspan="5">1.3.1 Biznesin aparılması üçün şərait</td><td rowspan="5">22-ci yer, 73,9 bal</td><td rowspan="5">Bu göstərici hökumətlərin biznesi idarə etmək üçün sabit siyasət mühitini təmin etmə dərəcəsini müəyyən edir. Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə hökumət biznesin idarə edilməsi üçün sabit siyasət mühitini nə dərəcədə təmin edir?” sualına cavab [1 = ümumiyyətlə təmin etmir; 7 = böyük ölçüdə təmin edir].</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Sahibkarların qarşılaşdıqları çətinliklər barədə məlumat və təkliflərin koordinasiyalı şəkildə Rəqəmsal İdarəetmə Platforması vasitəsilə Komissiyanın digər işçi qruplarına təqdim edilməsi</td><td>Hər rüb</td><td>İqtisadiyyat Nazirliyi (KOBİA)</td><td>Elmar İsayev, Nicat Eyvazzadə</td></tr>
<tr><td>2. Biznes mühitində baş verən yenilik və dəyişikliklər barədə məlumatlılığın artırılması məqsədilə sahibkarlarla və ictimaiyyətlə kommunikasiyaların intensivliyinin artırılması</td><td rowspan="2">İl ərzində</td><td>İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA və Dövlət Vergi Xidməti)</td><td>Elmar İsayev, Maya Əlyarzadə, Nicat Eyvazzadə</td></tr>
<tr><td>3. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün tənzimləmə və normativ hüquqi bazanın təkmilləşdirilməsi</td><td>İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi</td><td>Rövşən Məcidov</td></tr>
<tr><td>4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi</td><td>01.07.2024</td><td>İqtisadiyyat Nazirliyi</td><td>Elmar İsayev</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 4. | **1.3.2 Sahibkarlıq siyasəti və mədəniyyəti** | m/y | Bu göstərici sahibkarlıq siyasəti və sahibkarlıq mədəniyyəti üzrə ekspertlərin orta qavrama ballarını əks etdirir.<br>Müxtəlif sahələr üzrə ekspertlər (məqsədli seçmə, ildə minimum 36 ekspert) öz ölkələrində sahibkarlıq şəraitini bəyanatlar (1= tamamilə yanlış;<br>10 = tamamilə doğru) vasitəsilə qiymətləndirirlər. | 1. Bu indikator üzrə ölkə barədə məlumatların müvafiq beynəlxalq hesabatda əks olunması üçün GEM platforması ilə əlaqələrin qurulması və ekspert sorğusunun təşkili ilə bağlı tədbirlərin görülməsi | 01.10.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Nicat Eyvazzadə, Elmar İsayev |
| | | | | 2. Sahibkarlığın inkişafı ilə əlaqədar dəstək tədbirlərinin həyata keçirilməsi | Mütəmadi | | Elmar İsayev |
| | | | | 3. KOB subyektlərinin maliyyə resurslarına çıxış imkanının artırılması | | İqtisadiyyat Nazirliyi (o cümlədən Sahibkarlığın İnkişafı Fondu və KOBİA) | Cavid Hüseynli, Elmar İsayev |
| | | | | 4. Beynəlxalq təcrübə nəzərə alınmaqla Dövlət Vergi Xidmətində müştəri yönümlü dəyərlərin tətbiqinin genişləndirilməsi, o cümlədən proaktiv xidmətlərin artırılması | | İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti) | Maya Əlyarzadə |
| | | | | 5. Ümumi təhsil pilləsinin bütün səviyyələrində tədris edilən fənlərin məzmununa maliyyə savadlılığı, sahibkarlığa dair bilik və təcrübələrin inteqrasiyası | 01.12.2024 | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Mərkəzi Bank | Firidun Həmzəyev |
| 5. | **3.3.2 Ekoloji performans** | 77-ci yer, 33,4 bal | Ekoloji Fəaliyyətin Effektivliyi İndeksi ölkələri ətraf mühitin vəziyyəti və ekosistemin canlılığı baxımından qiymətləndirir. Bu hesablamalar ölkələrin müəyyən edilmiş ekoloji siyasət hədəflərinə nə dərəcədə yaxın olduqlarını qiymətləndirməyə imkan verir. İndeks üzrə qiymət 0-dan 100-ə qədər dəyişir və 100 ən yaxşı göstərici hesab edilir. | 1. Ekoloji performans indikatorunda yer alan göstəricilər üzrə beynəlxalq yanaşmalar əsasında statistik məlumat bazasının yaradılması | 01.10.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi | Faiq Mütəllimov, Qumru Cəfərova |
| | | | | 2. Beynəlxalq təcrübə, eləcə də müvafiq indikatorun metodologiyası nəzərə alınmaqla, Azərbaycan Respublikasında ətraf mühitin vəziyyətinə dair hesabatın hazırlanması | 01.12.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar | Faiq Mütəllimov |
| | | | | 3. İqtisadiyyatın bütün sahələrində və ev təsərrüfatlarında enerjidən səmərəli istifadənin tətbiqi və təşviqi üzrə müvafiq tədbirlərin görülməsi | Mütəmadi | Energetika Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Asəf Rzayev, Faiq Mütəllimov |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.06.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Faiq Mütəllimov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 6. | **3.3.3 ISO 14001 ətraf mühit sertifikatları** | 83-cü yer, 0,5 bal | ISO 14001 sertifikatı, bir təşkilatın ətraf mühit üzrə müvafiq imkanlarını artırmaq üçün istifadə edə biləcəyi ekoloji idarəetmə sisteminin tələblərini müəyyənləşdirir. ISO 14001, dayanıqlığın ətraf mühit üzrə təməlinə fayda verməklə, ətraf mühitlə bağlı məsuliyyətlərin sistemli şəkildə idarə edilməsini hədəfləyən təşkilatlar tərəfindən istifadə olunmaq üçün nəzərdə tutulmuşdur. Təşkilatın ətraf mühitlə bağlı siyasətinə uyğun olaraq, ekoloji idarəetmə sistemi özündə ətraf mühitin mühafizəsinin artırılması, uyğunluq öhdəliklərinin yerinə yetirilməsi və ekoloji məqsədlərə nail olunmasını ehtiva edir. ISO 14001 ətraf mühitin idarə edilməsini sistemli şəkildə təkmilləşdirmək üçün tam və ya qismən istifadə edilə bilər. Buna baxmayaraq, bütün meyarlar təşkilatın ekoloji idarəetmə sistemində nəzərə alınmadıqca və istisnasız olaraq yerinə yetirilmədikcə, ISO 14001 sertifikatının uyğunluq tələbləri qəbul edilə bilməz. | 1. Sahibkarların, idarə, təşkilat və müəssisələrin “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatının mahiyyəti barədə məlumatlandırılması məqsədilə maarifləndirmə tədbirlərinin davam etdirilməsi | Mütəmadi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Faiq Mütəllimov, Elmar İsayev |
| | | | | 2. “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatını əldə etmiş müəssisələrin vahid məlumat reyestrinin yaradılması üzrə təkliflərin verilməsi | 01.06.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən Azərbaycan Standartlaşdırma İnstitutu), Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Gülbacı Əliyeva, Faiq Mütəllimov |
| | | | | 3. Fəaliyyətində ətraf mühitə zərərli təsir göstərən müəssisələrdə aidiyyəti qurumlarla birgə “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” beynəlxalq standartı üzrə təlimlərin keçirilməsi və onların sertifikatlaşdırılması üzrə tədbirlərin görülməsi | 01.11.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən Azərbaycan Standartlaşdırma İnstitutu, və KOBİA), Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Gülbacı Əliyeva, Elmar İsayev, Faiq Mütəllimov |
| | | | | 4. “ISO 14001 ətraf mühitin idarə edilməsi sistemi” sertifikatını əldə etmiş müəssisələrin stimullaşdırılması istiqamətində irəli sürülən təkliflərin həyata keçirilməsi | 01.07.2024 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Azərbaycan Standartlaşdırma İnstitutu) | Faiq Mütəllimov, Gülbacı Əliyeva, Rövşən Məcidov |
| | | | | 5. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Faiq Mütəllimov |
| 7. | **4.2.1. Bazar kapitallaşması (ÜDM-də xüsusi çəkisi)** | m/y | Bazarın kapitallaşması (“bazar dəyəri” kimi tanınır) müvafiq siyahıya alınmış yerli şirkətlərin səhmlərinin dəyərinə əsasən müəyyən edilir. Bu siyahıya investisiya fondları, birləşmiş şirkətlər (müxtəlif təşkilatlar | 1. Səhm bazarının təşviqi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi | 01.06.2024 | Mərkəzi Bank | Arif Cəlilov |
| | | | | 2. İnvestisiya qiymətli kağızlar ilə klirinq-hesablaşma proseslərinin optimallaşdırılması üçün müvafiq əməliyyat infrastrukturunun təkmilləşdirilməsi | 01.10.2024 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | tərəfindən bu cür şirkətlərə investisiya qoyulması), səhmdarların maraqlarını müdafiə edən digər şirkətlər daxil edilə bilər. Məlumatlar son 3 ilin nəticələrinin ortalaması əsasında müəyyən edilir. | 3. Qiymətli kağızlar bazarının üstünlükləri, vergi güzəştləri, “Qiymətli kağızların emissiyası sistemi” və kapital bazarının digər aspektləri barədə məlumatların biznes ictimaiyyətinə çatdırılması üzrə müvafiq tədbirlərin görülməsi | İl ərzində | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti və KOBİA) | Arif Cəlilov, Maya Əlyarzadə, Elmar İsayev |
| | | | | 4. İnvestorların kapital bazarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə fond birjası vasitəsilə məsafədən ticarətə imkan verən istifadəçi yönümlü mobil tətbiqlərin və vebəsaslı platformaların tətbiqinin təşviqi, mövcud platformaların funksionallığının artırılması | | Mərkəzi Bank | Arif Cəlilov |
| | | | | 5. Bakı Fond Birjasında (BFB) listinqdə olan səhmdar cəmiyyətlərin sayının artırılması və ümumilikdə BFB-nin bazar kapitallaşmasının yüksəldilməsi məqsədilə stimullaşdırıcı və maarifləndirici tədbirlərin davam etdirilməsi | | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Arif Cəlilov, Elmar İsayev |
| | | | | 6. Kapital bazarında investisiya qiymətli kağızlarının kütləvi təklifinin stimullaşdırılması və özəl sektorun maliyyələşmə imkanlarının artırılması məqsədilə maliyyə stimullarının tətbiq edilməsi | | Mərkəzi Bank | Arif Cəlilov |
| | | | | 7. Kapital bazarında məlumatlılıq və maarifləndirmə səviyyəsinin artırılması məqsədilə ali məktəb tələbələri üçün müvafiq təqdimatların təşkili | | Mərkəzi Bank, Elm və Təhsil Nazirliyi | |
| | | | | 8. BFB tərəfindən həyata keçirilən Listinq Məsləhət Proqramı çərçivəsində kapital bazarına maliyyələşmə təşəbbüsü ilə müraciət edən şirkətlərin dəstəklənməsi üçün sertifikatlı təlim proqramlarının təşkili, onlara məlumatlandırıcı bildiriş və bukletlərin göndərilməsi və sosial şəbəkələrdə təbliğat işinin aparılması | | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi | Arif Cəlilov, Elmar İsayev |
| | | | | 9. Kapital bazarının inkişafı sahəsində koordinasiyanın artırılması və qarşıya çıxan çağırışların operativ həlli məqsədilə sahəvi assosiasiyalarla əməkdaşlığın genişləndirilməsi | | Mərkəzi Bank | Arif Cəlilov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | 10. Regionlarda fəaliyyət göstərən kiçik və orta biznes təmsilçilərinin, o cümlədən biznesə yeni başlayan subyektlərin kapital bazarı vasitəsilə maliyyələşməsinə, mövcud bizneslərinin inkişafına və korporativ idarəetmə standartlarının təşviqinə dəstək göstərilməsi, onların kapital bazarı və BFB-də listinqin üstünlükləri barədə məlumatlandırılması üçün KOBİA ilə birlikdə investisiya səfərlərinin (rübdə bir dəfədən az olmamaqla) təşkil edilməsi | İl ərzində | Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Arif Cəlilov, Elmar İsayev |
| | | | | 11. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | Mərkəzi Bank | Arif Cəlilov |
| 8. | **5.2.2 Klasterlərin inkişafı** | 28-ci yer, 66,9 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Ölkənizdə yaxşı inkişaf etmiş və dərin klasterlər (firmaların, təchizatçıların, əlaqədar məhsul və xidmətlərin istehsalçılarının və müəyyən bir sahədə ixtisaslaşmış qurumların coğrafi konsentrasiyası) nə dərəcədə geniş yayılmışdır?” sualına cavab [1 = mövcud deyil; 7 = bir çox sahələrdə geniş yayılmışdır]. | 1. KOB klasterlərinin yaradılması sahəsində potensial investorlarla maarifləndirici tədbirlərin həyata keçirilməsi | Mütəmadi | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | Elmar İsayev |
| | | | | 2. Sahibkarlıq fəaliyyətinin təşkili və ya genişləndirilməsi ilə bağlı xidmətlər göstərən aidiyyəti dövlət orqanları ilə KOB klasterlərinin yaradılmasının dəstəklənməsi sahəsində əməkdaşlığın səmərəliliyinin artırılması | | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA), digər aidiyyəti dövlət qurumları | |
| | | | | 3. KOB klasterlərinin yaradılması ilə bağlı ölkəmizin iqtisadi-coğrafi rayonlarının regional və sektoral xüsusiyyətlərinin təhlil edilməsi | 01.06.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən KOBİA) | |
| | | | | 4. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi | |
| 9. | **5.3.4 Birbaşa xarici investisiyalar, xalis daxilolmalar** | 118-ci yer, 0,4 bal | Birbaşa xarici investisiya investorun özünün fəaliyyət göstərdiyi ölkədən fərqli bir ölkədə fəaliyyət göstərən müəssisədə davamlı idarəetmə marağı (səsvermə səhmlərinin 10 faiz və ya daha çox hissəsi) əldə etməsi üçün son 3 ildə qoyduğu xalis ortalama investisiya məbləğini əks etdirir. Bu kapital investisiyanın, gəlirlərin təkrar yatırımının, digər | 1. Sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli sazişlərin imzalanması istiqamətində müvafiq tədbirlərin görülməsi | İl ərzində | | |
| | | | | 2. Birbaşa xarici investisiyaların cəlbinin təşviqi məqsədilə “investinazerbaijan.gov.az” platformasının hazırlanması və tətbiqi | 01.11.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən AZPROMO) | Səməd Həsənov |
| | | | | 3. CRM sistemi vasitəsi ilə dövlət və biznes dialoqunun dəstəklənməsi | Mütəmadi | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | uzunmüddətli kapitalın və tədiyyə balansında göstərilən digər qısamüddətli kapitalın məcmusunu əhatə edir. Bu sıralama xarici investorlar tərəfindən müvafiq iqtisadiyyata xalis investisiya axınını göstərir və ÜDM-ə bölünür. | 4. Xarici və yerli investorlarla yerli qurumlar arasında effektiv dialoq çərçivəsinin qurulması | 01.12.2024 | İqtisadiyyat Nazirliyi (o cümlədən AZPROMO) | Səməd Həsənov, Elmar İsayev |
| | | | | 5. İnvestisiya imkanlarının təşviqi ilə bağlı tədbirlərin davam etdirilməsi | | | |
| | | | | 6. İndikatora dair məlumatların aidiyyəti mənbələrdə tələb olunan formada öz əksini tapması üçün müvafiq tədbirlərin görülməsi | 01.07.2024 | İqtisadiyyat Nazirliyi | Elmar Hacıyev, Elmar İsayev |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 10. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə əməkdaşlığın davam etdirilməsi və genişləndirilməsi | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 11. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupu ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki faktiki göstərici və ya qanunvericilik tələbi barədə dəqiq məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması | | | |
| 12. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Müvafiq beynəlxalq təşkilatlara aidiyyəti üzrə təqdim olunan informasiya və statistik məlumatların daim yenilənməsinin təmin edilməsi | | | |